# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrasından irəli gələn bəzi məsələlərin həll edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 yanvar tarixli 2s nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq:

1. “Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrasından irəli gələn bəzi məsələlərin həll edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 yanvar tarixli 2s nömrəli Sərəncamında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissənin “İşçi Qrupun üzvləri” bölməsindən “Naxçıvan Muxtar Respublikası Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsinin icraçı direktoru” sözləri çıxarılsın;

1.2. 2.4-cü bəndin “Altqrupun üzvləri” bölməsindən “Naxçıvan Muxtar Respublikası Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsinin Maliyyə və mühasibatlıq şöbəsinin müdiri” sözləri çıxarılsın;

1.3. həmin Sərəncama əlavə - “Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçı olduğu tədbirlər üzrə icra funksiyasının yerinə yetirilməsi həvalə edilən dövlət orqanları (qurumları)” cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

1.3.1. 81-ci, 85-ci və 87-ci hissələrin “Əsas icraçı” sütununda “NMR TMİB” akronimi “NMR SN” akronimi ilə əvəz edilsin;

1.3.2. 91-ci hissənin “Digər icraçılar” sütunundan “NMR TMİB” akronimi çıxarılsın;

1.4. “Akronimlər və ixtisarlar” hissəsindən “NMR TMİB − “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsi” sözləri çıxarılsın.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 2 ” “ iyun ” 2025-ci il

№ 68s